# THE JOURNAL OF ECONOMIC SCIENCES: THEORY AND PRACTICE




“Journal of Economic Sciences: Theory and Practice” - ISSN 3079-0425, E-ISSN 3079-0433 - UNEC-in elmi nəşrlərindən biridir və iqtisadiyyat sahəsində yüksək keyfiyyətli tədqiqatların dərc olunduğu önəmli platformadır. Nəşr iqtisadi proseslərin elmi əsaslarla izahı, müasir iqtisadi siyasətin qiymətləndirilməsi və empirik araşdırmaların nəticələrinin elmi ictimaiyyətə təqdim olunmasını məqsəd qoyur. Jurnal həm çap, həm də elektron formatda fəaliyyət göstərir və rəsmi kodları ilə qeydiyyata alınıb. Jurnalın əsas məqsədi iqtisadiyyat nəzəriyyəsi, makro və mikroiqtisadi məsələlər, maliyyə, menecment və iqtisadi siyasət kimi mövzularda akademik və praktik tədqiqatları geniş auditoriyaya çatdırmaqdır. Bu jurnal UNEC üçün xüsusi əhəmiyyət daşıyır, çünki o, **Azərbaycanda iqtisadiyyat sahəsində SCOPUS bazasında indekslənmiş ilk jurnal**dır. Bu, UNEC-in beynəlxalq elmi standartlara uyğun fəaliyyətinin və elmi nəşrlərin keyfiyyətinin göstəricisidir. Jurnal həmçinin **Crossref**-in üzvüdür və bütün dərc edilən məqalələrə rəsmi DOI verilir. Bu, məqalələrin beynəlxalq elmi bazalarda daha asan istinad edilməsinə və elmi təsirinin artmasına imkan yaradır. “Journal of Economic Sciences: Theory and Practice” həm nəzəri, həm də praktik tədqiqatları əhatə edir və beynəlxalq elmi ictimaiyyət üçün mühüm platforma rolunu oynayır. Jurnal, həm yerli, həm də xarici tədqiqatçılara öz elmi nəticələrini paylaşmaq imkanı yaradır və iqtisadiyyat sahəsində Azərbaycan elminin beynəlxalq səviyyədə tanınmasına töhfə verir. Nəşr double-blind *peer-review* sistemi ilə işləyir və qəbul olunan bütün məqalələrə DOI qeydiyyatı verilir. Jurnal müxtəlif beynəlxalq platformalarda – Google Scholar, RePEc, CrossRef və digər elmi məlumat bazalarında indeksləşdirilir ki, bu da müəlliflərin elmi görünürlüğünü artırır. Jurnalda iqtisadi nəzəriyyə, makro və mikroiqtisadiyyat, maliyyə və bankçılıq, dövlət iqtisadi siyasəti, rəqəmsal iqtisadiyyat, iqtisadi inteqrasiya, enerji iqtisadiyyatı və regional inkişaf kimi sahələr üzrə tədqiqatlar dərc olunur. Nəşr həm empirik, həm də konseptual araşdırmalara üstünlük verir və iqtisadi proseslərin elmi təhlilinə əsaslanan məqalələri dəstəkləyir.

# UNEC JOURNAL OF ENGINEERING AND APPLIED SCIENCES (UNEC JEAS)




“UNEC Journal of Engineering and Applied Sciences” (UNEC JEAS) ISSN: 2790-2358, E-ISSN: 2790-234X - elmi jurnalı 2021-ci ildə təsis edilmişdir və ilk buraxılışı 26 dekabr 2021-ci ildə 7 məqalə ilə olmuşdur. Daha sonrakı illərdə stabil olaraq ildə iki dəfə (may və dekabr aylarında) olmaqla ümumilikdə 20-21 (hər nömrədə 10 məqalə olmaqla) məqalə dərc edilmişdir. Jurnal təsis olunduğu ilk gündən rəsmi web səhifəsi üzərindən online şəkildə yayımlanması ilə yanaşı, həm də çap versiyası (I buraxılır. Jurnalın sonuncu 8-ci sayı (Vol 5, No 1) plana uyğun olaraq 26 may 2025-ci il tarixində online və çap formatında yayımlanmışdır. 2023-cü ildənUNEC Rəqəmsal Obyekt İdentifikatorları (DOI) üçün rəsmi qeydiyyat agentliyi olan Crossref-ə rəsmi üzv olmuşdur və UNEC JEAS-da dərc edilən bütün məqalələr üçün həmin agentlik tərəfindən təsdiq olunan DOI-lər verilir. “UNEC Journal of Engineering and Applied Sciences” elmi jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında AAK-nın məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısına daxil edilmişdir (Texnika elmləri bölməsi üzrə). Jurnal Crossreflə yanaşı Chemical Abstract Service, Index Copernicus, WorldCat, Google Scholar, Eurasian Scientific Journal Index, Cite Factor, Directory of Research Journals Indexing, Cosmos Impact Factor bazalarında indekslənmişdir. 9 dekabr 2024-cü ildə UNEC JEAS jurnalına SCOPUS bazasında indekslənməsi barədə rəsmi məktub göndərilmişdir. Hazrıda jurnalda 2021-ci ildə dərc edilmiş ilk məqalələr də daxil olmaqla bütün məqalələr Scopus bazasında indekslənir. 02 iyun 2025-ci ildə isəScopus bazasından jurnal profillərinin yenilənməsindən sonra UNEC JEAS 3 istiqamətin hər biri (Mühəndislik (müxtəlif), mexanika mühəndisliyi, elektrik və elektronika mühəndisliyi) üzrə Q2 kvartili ilə indekslənmişdir. Jurnalın faktiki Cite Score göstəricisi 2.7-dir. UNEC JEAS jurnalı Scopusda “Engineering (miscellaneous)”, “Mechanical Engineering” və “Electrical and Electronic Engineering” kateqoriyalarında Q2 kvartilinə daxil olaraq, müvafiq olaraq 54%, 50% və 50%-lik “faiz” göstəricilərinə nail olmuşdur. Bu nəticələr UNEC nəşrinin regional səviyyədən beynəlxalq elmi müstəviyə keçidini təsdiq edir.

# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ


AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ
AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS SCIENTIFIC REVIEWS
UNEC 95
ELMİ, RESENZİYALI, RÜBLÜK/ SCIENTIFIC, REFEREED, QUARTERLY
İl 13, Cild 13, aprel-iyun 2025
Year 13, Volume 13, April-June 2025
ISSN 2306-8426

MÜNDƏRİCAT - CONTENT


Siyasi iqtisadın perspektivləri: tədqiqat predmeti genişlənir ........ Əlican Babayev
Dünya iqtisadiyyatının transregional inteqrasiya mexanizmləri: Azərbaycanın regional əməkdaşlığına konseptual yanaşma ..... Müşfiq Quliyev, Murad Axundov
Nəqliyyat sistemində dövlət-özəl tərəfdaşlığı: müxtəlif modellərin oxşar və fərqli xüsusiyyətləri ........ Aqil Əsədov, Fuad Mirzəyev
İntellektual mülkiyyətin ölkənin elmi məhsuldarlığına təsirinin ekonometrik qiymətləndirilməsi: Azərbaycan nümunəsi ........ Sərdar Şabanov
Azərbaycan Respublikasının milli sərvəti və onun qiymətləndirilməsi nəticələri ........ Şəfiqə Məmmədova
İxracın artmasının iqtisadi bərpa üzərindəki təsirləri ........ Elman İbişov, Rafail Rzayev, Nəriman Nərimanlı
Kompetensiya əsaslı tədris prosesinin təşkili və nəticələrinin təhlili ........ Rüfət Sərdarlı, Aysel Qaragözova, Hacı Məhəmməd Vagif
Azərbaycanın biznes tsikllərinin dəyişkənliyi və pul siyasəti şoklarının rolu ........ Ramiz Rəhmanov
Yaşıl iqtisadiyyatda tullantıların idarə olunması ........ Həcər Şükürova, Elşən Əhmədov
Orta təbəqənin formalaşması amilləri və əhəmiyyəti ........ Nazim Məmmədov
Azərbaycanın "yaşıl enerji"yə keçid siyasətində perspektivlər və çətinliklər ........ Əfsanə Cəfərova
İcbari sığorta səmərəliliyinin iqtisadi qiymətləndirilməsi ........ Elmar Allahverdi


https://journals.unec.edu.az/

**Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri - ISSN 2306-8426, E-ISSN 3105-076X** - jurnalı UNEC tərəfindən rübdə bir dəfə nəşr olunan, çoxşaxəli və akademik rəy prosesi əsasında fəaliyyət göstərən elmi nəşrdir. Jurnal 16 noyabr 2012-ci ildən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin çap mediasının reyestrinə daxil edilmişdir. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər siyahısında yer alır və doktorluq və elmlər doktoru dissertasiyalarının əsas nəticələrinin dərc olunmasına imkan verir. Nəşr beynəlxalq standartlara uyğun olaraq ikili gizli rəy (double-blind peer review) proseduru tətbiq edir. Hər məqalə müvafiq sahə üzrə iki müstəqil ekspert tərəfindən qiymətləndirilir və yalnız müsbət rəy və StrikePlagiarism antiplagiat sistemindən uğurla keçdikdən sonra dərc olunur. Rəy prosesi beynəlxalq standartlara uyğun formalarla sənədləşdirilir. 2013-cü ildən etibarən jurnal Azərbaycan, ingilis və rus dillərində məqalə qəbul edir. Məqsəd iqtisad və digər sosial elmlərin (tarix, beynəlxalq münasibətlər, fəlsəfə, sosiologiya və s.) müasir və ümumkonseptual problemlərini elmi-metodoloji cəhətdən ifadə edən orijinal tədqiqatların dərcinə üstünlük verməkdir. Jurnal həm elmi yenilik, həm də tətbiqi əhəmiyyət daşıyan tədqiqatları əhatə edir. Nəşr ildə dörd dəfə — rüblük formatda həyata keçirilir və geniş beynəlxalq elmi ictimaiyyətə çıxışı təmin edir, müəlliflərin akademik görünürlüğünü artırır.

# UNEC JOURNAL OF ECONOMICS AND MANAGEMENT ADVANCES (UNEC JEMA)




UNEC Journal of Economics and Management Advances (JEMA) — ISSN 3106 - 4086, E-ISSN 3106-4094, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) tərəfindən nəşr olunan beynəlxalq, rəy prosesi əsasında (peer-reviewed) və açıq girişli (open- access) elmi jurnaldır. Jurnal iqtisadiyyat, menecment, maliyyə, sahibkarlıq və innovasiya sahələrində nəzəri və praktik tədqiqatların yayılmasına xidmət edir. JEMA-nın məqsədi müasir iqtisadi sistemlərin və idarəetmə modellərinin təhlili, yeni iqtisadi trendlərin araşdırılması və bu sahədə elmi biliklərin inkişafına töhfə verməkdir. Dərc olunan məqalələr **Creative Commons Attribution 4.0 International (CC BY 4.0)** lisenziyası əsasında yayımlanır, bu da məqalələrin paylaşılmasına, istifadəsinə və yayılmasına şərait yaradır.

Jurnal **Open Journal Systems (OJS)** platformasında fəaliyyət göstərir və bu sistem vasitəsilə məqalələrin təqdim edilməsi, qiymətləndirilməsi və dərc prosesi tam avtomatlaşdırılmış şəkildə həyata keçirilir. OJS həmçinin istinadların izlənməsini və beynəlxalq elmi bazalarla inteqrasiyanı təmin edir. Jurnalın məzmunu **Creative Commons** lisenziyası ilə qorunur, bu da elmi məqalələrin sərbəst paylaşılıb istifadəsinə imkan yaradır. **JEMA** jurnalı **Google Scholar, World Cat, Scilit** kimi elmi bazalarda indekslənir. Redaksiya heyəti Azərbaycanın və xarici ölkələrin – o cümlədən Türkiyə, ABŞ və Avropa ölkələrinin tanınmış alimlərindən ibarətdir. Bu, jurnalın beynəlxalq əməkdaşlıq və akademik keyfiyyət baxımından yüksək səviyyədə olduğunu göstərir.

# UNEC JOURNAL OF COMPUTER SCIENCE AND DIGITAL TECHNOLOGIES (UNEC JCSDT)




UNEC Journal of Computer Science and Digital Technologies (JCSDT) ISSN 3105 - 7861, E-ISSN 3105-787X - Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) tərəfindən 95 illik yubiley münasibətilə yaradılmış, yarımillik, peer-review sistemi ilə dərc olunan, açıq elikli (open-access) elmi jurnal olaraq fəaliyyət göstərir. Jurnal kompüter elmləri və rəqəmsal texnologiyalar sahəsində nəzəri əsasların inkişafı və praktik tətbiqlərin təşviqi məqsədilə fəaliyyət göstərir.

JCSDT dünya miqyasında tədqiqatçılar, praktiklər və siyasətçilər üçün yüksək keyfiyyətli orijinal tədqiqat məqalələrinin, geniş ədəbiyyat icmallarının, hadisə/təcrübə araşdırmalarının və qısa elmi xəbərlərin yayılması üçün platforma təmin edir. JCSDT jurnalı Open Journal Systems (OJS) platformasında yerləşir və məzmunu Creative Commons Attribution 4.0 (CC BY 4.0) lisenziyası ilə qorunur. Jurnal akademik mükəmməlliyə sadiq qalaraq ciddi double-blind peer-review prosesi və etik nəşr prinsiplərini tətbiq edir. JCSDT həmçinin yeni elmi ideyaların və praktik həllərin təşviqinə, onların real dünyada tətbiqi və müasir problemlərin həllinə töhfə verməyə prioritet verir. Jurnalın **print ISSN kodu 3105-7861**, **online ISSN kodu isə 3105-787X**-dir və bu, onun beynəlxalq elmi standartlara uyğunluğunu təsdiqləyir. Nəşr həm yerli, həm də beynəlxalq tədqiqatçı auditoriyasına açıqdır və kompüter elmləri ilə rəqəmsal texnologiyalar sahəsində elmi tədqiqatların yayılmasına mühüm töhfə verir.

## UNEC JOURNAL OF CURRENT PROBLEMS IN DESIGN




UNEC Journal of Current Problems in Design (JCPD) – Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) tərəfindən nəşr edilən elmi, resenziyalı və açıq girişli jurnaldır. Jurnal dizayn sahəsində aktual problemləri işıqlandırmaq, nəzəri və praktik tədqiqatları bir araya gətirmək və fənlərarası yanaşmaların inkişafını təşviq etmək məqsədilə yaradılmışdır. JCPD müasir dizayn düşüncəsinin iqtisadiyyat, mədəniyyət, texnologiya və cəmiyyətlə qarşılıqlı əlaqəsini araşdırır. Jurnal bu sahədə fəaliyyət göstərən alimlər, praktik dizaynerlər və tədqiqatçılar üçün akademik platforma kimi çıxış edir. Jurnal qrafik və vizual dizaynın aktual problemləri, milli və mədəni kimlik kontekstində dizayn, rəqəmsal texnologiyaların dizayna təsiri Davamlı və ekoloji dizayn yanaşmaları, Dizayn təhsili və pedaqoji metodologiyalar İnformasiya dizaynı və istifadəçi təcrübəsi (UX/UI), brendinq və vizual kommunikasiya, sosial, iqtisadi və psixoloji aspektlərdən dizayna yanaşmalar və digər sahələrdə məqalələri qəbul edir. JCPD fənlərarası araşdırmalara, xüsusilə dizaynın iqtisadiyyat, marketinq, incəsənət, texnologiya və sosiologiya ilə əlaqəsinə – xüsusi önəm verir. JCPD açıq giriş prinsipini dəstəkləyir və oxuculara bütün məzmunu sərbəst və pulsuz təqdim edir. Dərc olunan məqalələr **Creative Commons Attribution 4.0 International (CC BY 4.0)** lisenziyası əsasında yayımlanır, bu da məqalələrin paylaşılmasına, istifadəsinə və yayılmasına şərait yaradır. Müəlliflər öz əsərlərinə müəlliflik hüququnu saxlayır və jurnala onların məqaləsini yayımlamaq üçün qeyri-eksklüziv hüquq verirlər. Bütün məqalələrə düzgün istinad şərtilə açıq istifadə icazəsi verilir. Bütün təqdim olunan məqalələr ixtisaslaşmış ekspertlər tərəfindən anonim şəkildə qiymətləndirilir. Jurnal elmi etikaya, plagiatla mübarizəyə və müəlliflik hüquqlarına ciddi riayət edir.

# VERGİ JURNALI




“**Azərbaycanın vergi jurnalı” (AVJ) ISSN - 2305-4611** - 2003-cü ildə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən təsis edilmişdir. Müstəqil, beynəlxalq resenziyalı elmi nəşrdir. Jurnal beynəlxalq ISSN (Beynəlxalq Standart Seriya Nömrəsi) mərkəzində qeydiyyata alınmış və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə iqtisadiyyat elmləri üzrə elmi nəşrlər siyahısına daxil edilmişdir. Elmi missiya “Azərbaycanın vergi jurnalı”nda, əsasən, vergiqoymanın müasir problemlərini və vergi işinin ümumkonseptual məsələlərini optimal nəzəri və praktiki uzlaşmada elmi-metodoloji cəhətdən ifadə edən məqalələrin dərcinə üstünlük verilir. JurnaldA həmçinin iqtisadiyyatın digər sahələrilə bağlı yazılmış orijinal məqalələrin dərcinə də yer verilir.

# UNEC EKSPERT JURNALI




UNEC Ekspert jurnalı Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) nəşr etdiyi, analitik və elmi məqalələrin dərc edildiyi bir platformadır. Jurnalın məqsədi, ölkənin iqtisadi inkişafı, sosial siyasət, qeyri-neft sektoru, biznes mühiti və digər aktual məsələlər üzrə ekspert rəylərini təqdim etməkdir. Xüsusilə, Azərbaycanın həyata keçirdiyi islahatların təhlili və strateji yol xəritələrinin hazırlanması sahəsində mühüm töhfələr verir.

Jurnalın məqalələri, UNEC-in təcrübəli alimləri və ekspertləri tərəfindən yazılır və ictimaiyyətə təqdim olunur. Bu məqalələr, həmçinin beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi sahəsində də əhəmiyyətli rol oynayır. Jurnalın nəşri, UNEC-in elmi fəaliyyətinin bir hissəsi olaraq, iqtisadiyyat və sosial sahələrdəki inkişafları izləmək və təhlil etmək məqsədini daşıyır.

# UNEC STUDENT RESEARCH JOURNAL




**UNEC Student Research Journal – ISSN: 3007-8628** Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) Tələbə Elmi Cəmiyyəti tərəfindən yaradılan ilk tələbə elmi jurnalidir. Jurnal tələbələr tərəfindən hazırlanır və redaksiya heyəti əsasən tələbələrdən ibarətdir. Jurnal 2023-cü ilin dekabr ayında təsis edilmişdir. Jurnalın əsas məqsədi yüksək intellektli gənclərin, həm Azərbaycanda, həm də xaricdə təhsil alan tələbələrin elmi məqalələrinin dərc olunmasına və yayılmasına imkan yaradaraq elm və təhsilin inkişafını dəstəkləməkdir. Eyni zamanda, tələbələrin akademik tədqiqatlara cəlb olunmasını təşviq etmək, tələbələr arasında elmi biliklərin sərbəst mübadiləsini təmin etmək və elmi yaradıcılığın inkişafını stimullaşdırmaq nəzərdə tutulmuşdur. Jurnal ildə iki dəfə nəşr olunur və Azərbaycanda və xaricdə universitetlərdə təhsil alan bakalavr və magistr tələbələrinə yönəldilmişdir. Məqalələr **Azərbaycan, Türk, İngilis və Rus** dillərində qəbul olunur. Jurnal **açıq giriş(open-access)** prinsipi ilə fəaliyyət göstərir və dərc olunan məqalələr **Creative Commons Attribution 4.0 (CC BY 4.0)** lisenziyası əsasında yayımlanır.